# ƏMR
# № F-54

Bakı şəhəri 8 aprel 2022-ci il

İqtisadiyyat Nazirliyində 2022-ci il üzrə növbəti "Uğur yolu" müsabiqəsinin təşkili haqqında

"Dövlət qulluğu haqqında" Azərbaycan Respublikası Qanununa və "Dövlət vergi orqanlarında xidmət haqqında Əsasnamə"yə uyğun olaraq, İqtisadiyyat Nazirliyində rəhbər vəzifələrin tutulması üçün yüksək potensiallı ehtiyat kadrlar bazasının formalaşdırılmasında mövcud potensialın səmərəli istifadəsinin, kadrların düzgün seçilməsi və yerləşdirilməsinin, peşəkarlıq səviyyəsinin artırılmasının, rotasiyasının, hərtərəfli inkişaf üçün şəraitin yaradılmasının təmin edilməsi, eləcə də idarəetmə sahəsində təcrübə mübadiləsinin təşkil edilməsi məqsədilə "Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi haqqında Əsasnamə"nin 5.5.13-cü yarımbəndini rəhbər tutaraq

əmr edirəm:

1. İqtisadiyyat Nazirliyində 2022-ci il üzrə növbəti "Uğur yolu" müsabiqəsi (bundan sonra – Müsabiqə) keçirilsin.

2. Müsabiqənin keçirilməsi məqsədilə aşağıdakı tərkibdə Komissiya yaradılsın:

Komissiyanın sədri:

Elnur Əliyev – iqtisadiyyat nazirinin birinci müavini.

Komissiyanın üzvləri:

Orxan Nəzərli – Dövlət Vergi Xidmətinin rəisi;

Mətin Eynullayev – Əmlak Məsələləri Dövlət Xidmətinin rəisi;

Məmməd Abbasbəyli – Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Xidmətinin rəisi;

Amil Əlili – Aparat rəhbərinin müavini;

Hüseyn Əliyev – iqtisadiyyat nazirinin müşaviri;

Emil Məcidov – iqtisadiyyat nazirinin müşaviri;

Xəqani Abdullayev – iqtisadiyyat nazirinin müşaviri;

Sevinc İsmayılova – İnsan resursları şöbəsinin müdiri;

Nərgiz Muradova – İnsan resursları şöbəsinin müdir müavini;

Aytən Kərimova – Dövlət Vergi Xidmətinin İnsan resursları baş idarəsinin rəisi.

3. Komissiyanın fəaliyyətinin aşkarlıq və şəffaflıq prinsipləri əsasında həyata

Azərbaycan Respublikasının
İqtisadiyyat Nazirliyi
ƏSLİ İLƏ DÜZDÜR

keçirilməsi təmin edilsin.

4. Komissiyanın cari fəaliyyətinin təşkili məqsədilə Katiblik funksiyasının həyata keçirilməsi İnsan resursları şöbəsinə həvalə edilsin. Katibliyin fəaliyyətinə rəhbərliyi İnsan resursları şöbəsinin müdir müavini Nərgiz Muradova həyata keçirsin.

5. İnsan resursları şöbəsinin müdiri Sevinc İsmayılovaya və Maliyyə və təminat şöbəsinin müdiri İsmayıl Aslanova tapşırılsın ki, zərurət yarandığı təqdirdə Komissiyanın fəaliyyətinə və işinin təşkilinə ekspertlərin "Dövlət satınalmaları haqqında" Azərbaycan Respublikası Qanununun tələblərinə uyğun olaraq ödənişli və ya ictimai əsaslarla cəlb edilməsini təmin etsinlər.

6. Hüquq şöbəsinin müdiri vəzifəsinin müvəqqəti icraçısı Teymur Əhmədova və İnsan resursları şöbəsinin müdiri Sevinc İsmayılovaya tapşırılsın ki, cəlb edilən ekspertlərlə birgə müsabiqə qaydalarının yenidən hazırlanmasını və təsdiq edilməsini təmin etsinlər.

7. Elektron idarəetmə şöbəsinin müdiri Sədiyar Əlibəyova tapşırılsın ki, müsabiqənin təşkili və keçirilməsinin bütün mərhələlərinin elektron həllər və proqram təminatını təşkil etsin.

8. Maliyyə və təminat şöbəsinin müdiri İsmayıl Aslanova tapşırılsın ki, müsabiqənin maliyyələşməsinin Nazirliyin büdcədənkənar vəsaiti hesabına həyata keçirilməsini və bu əmrdən irəli gələn digər məsələlərin həll olunmasını təmin etsin.

Əsas : iqtisadiyyat nazirinin birinci müavini Elnur Əliyevin 02.04.2022-ci il tarixli İN-D/Y-9813/2022 nömrəli xidməti məruzəsi.

Nazir Mikayıl Cabbarov

Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi * SƏNƏDLƏRLƏ VƏ VƏTƏNDAŞLARIN MÜRACİƏTLƏRİ İLƏ İŞ ŞÖBƏSİ

Azərbaycan Respublikasının
İqtisadiyyat Nazirliyi
ƏSLİ İLƏ DÜZDÜR